# 20

# Abdulla Şaiq



**İYİRMİ İLLİK PEDAQOJİ FƏALİYYƏTİ DOLAYISI İLƏ**

Ш6
Ş17

АЗӘРБАЈЧАН ЕЛМЛӘР АКАДЕМИЈАСЫ
ДӘДӘ ГОРГУД адына "ФОЛКЛОР"
ЕЛМИ-МӘДӘНИ МӘРКӘЗИ

220 941

# ABDULLA ŞAİQ TALIBZADƏ

PEDAQOJİ VƏ ƏDƏBİ FƏALİYYƏTİNİN İYİRMİ İLLİYİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN ALİ PEDAQOJİ İNSTİTUTU NƏZDİNDƏ İKİ DƏRƏCƏLİ "**ŞAİQ NÜMUNƏ MƏKTƏBİ**"NİN TƏŞƏBBÜSÜ İLƏ TƏRTİB EDİLMİŞ "**ŞAİQ GECƏSİ**"NDƏN BİR XATİRƏ

M. F. Axundov adına
Azərbaycan Dövlət
KİTABXANASI

BAKI – 2001

Kitabı ərəb əlifbasından müasir yazı qrafikasına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi MİNAXANIM RAFİQ QIZI ƏSƏDLİ çevirmişdir.

REDAKTORU: KAMAL TALIBZADƏ

**Abdulla Şaiq Talıbzadə.** Bakı, "Ağrıdağ" nəşriyyatı, 2001.

Kitabın 1923-cü il nəşri tələsik və bir qədər təcrübəsiz, azsavadlı tələbələr tərəfindən yığıldığı üçün orada xeyli dolaşıq cümlə və imla xətaları getmişdir. Onları islah etməyi lazım bilməmiş, kitabın dilindəki 20-ci illərin əvvəllərinə məxsus bir çox fonetik və imla xüsusiyyətlərini imkan daxilində mühafizə etməyə çalışmışıq.

A $\frac{4702060104}{064\text{-}2001}$ Qrifli nəşr

© Bakı, 1923.
©"Ağrıdağ", 2001.

# ÖN SÖZ

Azərbaycanın ədəbi-ictimai fikir tarixində maarif və mədəniyyət xadimi, şair, nasir, dramaturq, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi kimi tanınan Abdulla Şaiq Talıbzadə milli mədəni dünyamızın əvəzsiz şəxsiyyətlərindən biri olmuşdur. Yüz ilə yaxındır ki, onun haqqında saysız-hesabsız kitablar, məqalələr, xatirə və elmi, bədii əsərlər yazılmış, nəşr olunmuşdur. Ancaq oxucuların istifadəsinə verilən "Abdulla Şaiq-20" kitabı bir gecənin xatirəsinin məhsulu kimi meydana çıxmışdır. Belə ki, xatirə gecəsini "Şaiq Nümunə Məktəbi"nin tələbələri və müəllimləri təşkil etmişdi. Bu ad həmin tədris ocağına rəsmən, xüsusi qərar ilə verilməmişdi. Onu da müəllim və tələbələr özləri, valideynlər "Şaiq Nümunə Məktəbi" adlandırmışdılar. Bütün Azərbaycan ictimaiyyəti də bu adı o vaxt təsdiqləmişdi.

Bu məktəbin, onu yaradan müəllimin-vətəndaşın da əsil qiymətini onlar vermişdilər.

"Şaiq Nümunə Məktəbi" necə yaranmışdı? Bütün varlığı ilə gəncliyə bağlı olan gənc Şaiq rus şovinist mə'murları və müəllimləri ilə mübarizə apara-apara bu türkdilli tə'lim-tədris ocağını yaratmışdı. Ədib nağıl edirdi ki, 1918-ci ildə, Azərbaycan Cümhuriyyəti yarandığı dövrdə dərs dediyi Bakı realni məktəbində – rəhbəri, mürəbbisi olduğu öz sinfini **milliləşdirmişdi**: yə'ni bütün fənləri rus dilində keçirilən

sinfin türk dilində tədris edilməsinə nail olmuşdu. Bu tədbir o zaman çox böyük zəhmətin, vətəndaş qeyrətinin hesabına başa gəlmişdi. Nəzərə almaq lazımdır ki, "Şaiq Nümunə Məktəbi" o dövrdə **milliləşdirilmiş** ilk rus dilli Azərbaycan məktəbi idi. Tələbələri və onların valideynləri ilə bir-bir, ayrılıqda görüşərək, danışaraq Şaiq onlardan övladlarının türk (Azərbaycan) dilində oxumağa razılıqlarını almışdı. Bu o dövr idi ki, bütün ölkədə, idarələrdə işlər rus dilində aparılırdı və rus dilli mə'murların hökmranlıq etdiyi bir vaxtda bu arzunu həyata keçirmək son dərəcə çətin, ağır idi. Ancaq gənc Şaiq nüfuzu və ardıcıl, fasiləsiz əməyi sayəsində öz rəhbəri olduğu sinfi türkləşdirməyə – milliləşdirməyə nail olmuşdu, **bununla Azərbaycanda ilk orta milli təhsilin əsasını qoymuşdu.**

Bu, Azərbaycan orta təhsilində **böyük inqilab idi.** Məhz bu təhsil mərkəzinin əsasında "Şaiq Nümunə Məktəbi" yaranmışdı.

Bu kitabda "Şaiq Nümunə Məktəbi" haqqında xatirə söyləyən, onun milli mövqeyini qiymətləndirən tələbələrin, demək olar ki, hamısı Şaiqin 1918-ci ildə milliləşdirdiyi sinfin tələbələri idi, ətrafında toplanan türkçü, azərbaycançı müəllimlər idi. Bu tələbə və müəllimlər Şaiqin özünün müəllimliyinin, təhsil-tədris sahəsindəki xidmətlərinin şahidi olmuşdular, çar Rusiyasının mə'murları və rus dilli müəllimləri ilə necə ardıcıl mübarizə aparmasını əyani şəkildə müşahidə etmişdilər.



"Nümunə Məktəbi" tələbələrinin xüsusi seçilən geyimləri, döş nişanları, çiyinlərinə taxılmış xüsusi paqonları vardı. Məktəbi bitirəndə tələbələrə şəhadətnamə verilirdi. Bütün bu sadalanan əşya və sənədlər hazırda Abdulla Şaiq Mənzil Muzeyinin Fonduna toplanmış və orada mühafizə olunmaqdadır.

Abdulla Şaiq məqalələrindən birində yazırdı: "Mən yazıçılığımdan çox müəllimliyimlə iftixar edirəm". A. Şaiq sözün əsil mə'nasında müəllim idi, başqa sözlə böyük hərflə yazılan İNSAN idi, böyük müəllim , böyük İnsan kimi də tələbələrinin, müəllim dostlarının yaddaşında həkk olunub qalmışdı. Gələcəkdə böyük şəxsiyyətlər kimi yüksəlmiş, ictimai həyatımızın, elmimizin, ədəbiyyatımızın müxtəlif sahələrində layiqli mövqelərə sahib olmuş bu ziyalılarımızın hələ cavan yaşlarında öz müəllimləri haqqında dedikləri sözlər, fikirlər buna birər nümunədir:

**Mikayıl Rzaquluzadə** – "Ədəbiyyatçılar nə yaparlar?" – deyənlərdən "Şaiq nə yapdı?" – soracağım. – Şaiq yazılarını adi qələmlə kağızlara yazmamış, qüdrətli bir əllə qəlblərə qazmışdır. 1923

**İsmayıl Hikmət** – "Bəncə Şaiq nümunədir mələkə". 1923

**Qafur Əfəndizadə Qantəmir** – "Abdulla Şaiqin varlığındakı əhəmiyyəti layiqilə idrak edə bilmək üçün bircə dəqiqəlik yoxluğunu düşünməli". 1923

**Rəmzi Yüzbaşov** – "Yazıq Şaiqləri olmayanlara". 1923

**Hüseyn Cavid** – "Şaiq kimdir? Əvət hər kəscə o, çalışqan və təcrübəli bir **müəllim,** həssas, nazik bir **şair,** mehriban və səmimi bir **insandır.** Fəqət, məncə o bir heçdir ki, gözə çarpan bir çox yaldızlı varlıqlardan daha böyük, daha möhtərəmdir." 1923

**Atababa Musaxanlı** – "Şaiqin bütün şəxsiyyətini təsvir və təcəssüm üçün özünə iki nöqtədən yaxınlaşmaq vacibdir: "Şaiq – **Şair!** Şaiq – **Müəllim!**". 1923

Oxuculara təqdim olunan bu kitab 1923-cü ildə Adulla Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin 20 illik ildönümünə həsr olunmuş xatirə gecəsinin materialları əsasında hazırlanmış və həmin ildə də kitabça şəklində nəşr olunmuşdu.

Yubiley 1923-cü ilin soyuq dekabr ayına təsadüf etmişdi. Şaiqin tələbələri gül-çiçəklə Verxnı-Noqornı 19-da (İndiki Abdulla Şaiq küçəsi 21 "Abdulla Şaiq Mənzil Muzeyi"nin binasında) yerləşən mənzilinə gələrək yubilyarı alqışlamış, sonra əlləri üstünə alaraq Azərbaycan Ali Pedaqoji İnstitutunun (İndiki Dövlət İqtisadiyyat Universitetinin) akt salonunda toplaşan, onu təlaşla gözləyən toplantı iştirakçılarının hüzuruna gətirmişdilər...

Salon ağzına qədər dövrün məşhur, nüfuzlu maarif, mədəniyyət xadimləri ilə dolmuşdu. Tələbələr öz kiçik cüssəli, arıq, bəstəboy müəllimlərini yuxarı atıb tutanda məclisin başçısı maarif komissarı məşhur elm-mədəniyyət xadimi Mustafa Quliyev



yubilyarın ayaqqabısının köhnə olduğuna diqqət yetirməyi də nəzərdən qaçırmamışdı. Beləki, nazir xatirə gecəsinin səhəri tezdən şəxsi sürücüsünü Şaiqin mənzilinə yollayıb o vaxtlar Leninqradda hazırlanan, həm də dəbdə olan qəhvəyi rəngli "skoroxod" firmalı tufli də göndərməyi unutmamışdı. Bu hadisəni atam sonralar ara-bir xatırlayırdı. Çünki hədiyyə çox yerinə düşmüşdü.

Yubiley təntənəsi xətasız da keçməmişdi. Məclisin qızğın yerində elektrik xəttində pozğunluq yaranmış, işıqlar sönmüşdü. Ancaq bu xəta öz müəllimlərini təbrik üçün yığılmış tələblərin, yubiley iştirakçılarının əhvalını pozmadı. Tələbələr bir anda binanın arxa tərəfində yerləşən qədim İçəri Şəhərimizin evlərinə axışıb mənzillərdən onlarla otuzluq neft lampaları topladılar, çox çəkmədi ki, akt-salonu əvvəlkindən də çıraqban oldu...

Bu sətirləri yazırkən, ürəyimdən bir arzu keçdi: Nə yaxşı olardı, Dövlət İqtisadiyyat Universitetinin birinci mərtəbəsində "Abdulla Şaiq Nümunə Məktəbi 1918-1927-ci illərdə burada yerləşmişdir" lövhəsi vurulaydı.

Yeri gəlmişkən deyim ki, yubilyara xeyli üstü ərəb əlifbası ilə yazılmış gümüş albomlar, ev əşyaları, əmələ fakultəsinin tələblərinin əl işləri, xatirə əşyaları verilmişdi. Onların bir hissəsi bu gün də dövlətimizin bəzəyi olan Muzeylərimizdə mühafizə olunur, qorunur. Ədibin adını daşıyan "Abdulla Şaiq

Mənzil Muzeyin"də də xeyli xatirə əşyaları toplanmışdır. Kim ki, Abdulla Şaiqin şəxsi həyatı, valideynləri və nəsli, nəsl şəcərəsi, atası, anası, qardaşı, bacısı və həyat yoldaşı Şahzadə xanımla, onların nəsli və həyatları ilə, Şaiqin şəxsi güzranı ilə tanış olmaq istəyirsə, buyursun "Abdulla Şaiqin Mənzil Muzeyi"nə gəlsin (Abdulla Şaiq küçəsi, 21).

**Kamal TALIBZADƏ**



**MUSTAFA QULİYEV**
***Xalq Komissarlığı namına***

## SEVGİLİ MÜRƏBBİMİZ ŞAİQ TALIBZADƏNİN 20 İLLİK ƏMƏYİNƏ QARŞI

Azərbaycan Xalq Maarif Komissarlığı üç milyondan ziyadəlik bir elin maarifini təmsil etdiyi halda bütün ölkə naminə iyirmi il tərəqqi və təalimiz yolunda çəkilmiş zəhməti heç bir dəfə unudulmamaq üçün xatırlayor və bütün şüurlu və ziyalı zəhmətkeşlərimiz ilə bir yerdə bu gün Talıbzadə yoldaşı səmimi-qəlbdən alqışlayor və inanıyor ki, bu gün Abdulla Şaiq öz xüsusunda söylənilən sözlərdən daha yüksək, daha ulu məqama çıxmaq üçün füqərayi-kasibə hirsini yaratmaq üzrə iki böylə iyirmi il də bizimlə çalışacaqdır...

Bu günkü keşməkeşlər, qiyamətlər və atəşlər içindən doğan Şuralar Azərbaycanı, əlbəttə ki, Şaiq kimi zəif vücudlu, sarı bənizli, lakin sağlam ruhlu, sarsılmaz iradəli və qut qəlbli müəllimlərə və rəhbərlərə möhtac idi.

Abdulla Şaiq bir məktəbin dörd divarı içində çocuqlara tərbiyə vermək və tədris etməklə iktifa etmədi. Geniş Şuralar Azərbaycanının hər guşəsində müəllimlik yapmaq üçün şair və ədibliyə iqdam etdi və ölkəmizin hər guşəsində hörmətlərlə sayıldı. Bu

gün yaradılmaq üzrə olan lisan və ədəbiyyatımızın təməlini quranlardan biri oldu.

İyirminci əsrin əcnəbi ədəbiyyatı öz sələflərinə borclu olduqları kibi Azərbaycanın yeni ədəbiyyatı da Şaiq kibi müəllimlərinə minnətdar olacaqdır.

Yaşasın dəyərli və qoca müəllimimiz Talıbzadə, bir daha alqış sənə ədibimiz Şaiq əfəndi...



## ABDULLA ŞAİQ

* * *

Nerdə işıq bir ölkə orasını şənlətən
Həp eşqdir, məhəbbətdir, həp şe'rlə şairdir.
Haqsızlığa alət olan qüvvət ki, həp amirdir,
İnsanlığı odur hər an öksüz kibi inlətən.

Qüvvət hakim olan yerdə çiçəklənməz məhəbbət,
Ürək, o bir nur ocağı, qaranlıqdan xoşlanmaz.
Ruh, o həyatın çırağı sönər, o yerdə, yanmaz,
Zülmətlə nur bir araya girməz - bu bir həqiqət!..

İnsanlığa qüvvət degil, sevgi hakim olmalı,
"Qüvvət" sözü insanlığın içindən həp qovulsun.
Hətta bütün qamuslardan silinməli büsbütün
İnsanlığın qəlbi, ruhu sevgi ilə dolmalı...

### YENİ AY TOĞARKƏN...

***(Türk bikələri qiyafəsində alicənab bir qadın oğlu Yavuza - Ayı göstərərək)***

**Qadın:**

– Oğlum, Yavuz, o alaca bulutlardan az uzaq,
Gül yanaqlı, ağ bənizli, yeni toğan aya bak.
Almas kiprikli gözlərin nasıl dikmiş üzünə,
Nur saçaqlı saçlarını tağıtmış üz-gözünə.

Adaqlı bir gəlin kibi süslü, sevimli, dilbər,
Bak, nə kadar yakışmış da yanında yeddi ülkər.

**Yavuz:**

Annəciyim, bən günəşi aydan, yeddi ülkərdən
Çox sevərim, lakin bilməm, şu ayə bən bakarkən,
Neçin əski diləklərim dalğalansın gözümdə?
Neçin tatlı, uğurlu bir tuyğu toğar özümdə?
Neçin bu ay ruhuma pək uyğun, munis görünür?
İçim, tışım günəş kibi neçin nura bürünür?
Neçin bu ay gözümdə bir dilək kadar sevimli?
O əski ay bunca parlaq, şux baxışlı degildi,
Söylə, o Ay annəciyim, noldu, nerə uğradı?

**Qadın:**

– Yavrum, onu mələklər həp yıldız-yıldız doğradı,
Bak, o ayın bölüyüdür parlaq, o yeddi ülkər,
Hər birisi bir ay kadar, günəş kadar nur səpər,
O ülkərin hər birisi bir igidin yıldızı.

**Yavuz:**

– Ya, bənimki hankısıdır?

**Qadın:**

– Pək parlaq, o qırmızı!

**Yavuz:**

– Şu ülkərlər, annəciyim, bak, nə kadar ufaqdır,
İşıqları pək sönük, həm bir-birindən uzaqdır.
Bən istərim yeddi ülkər qovuşsun bir-birinə,



Üzərmizdə günəş kibi doğsun ülkər yerinə,
Şu günəş də həp doğsun həqq eşqinə, heç
sönməsin!
Şən-şən yurtlar bir qaranlıq məzarlığa dönməsin!
Bən istərim ki, şu günəş yıldızları dinlətsin!
Üfüqlərə çökən qara bulutları inlətsin!
Bən istərim şu günəşə bütün yer, göy tapınsın,
Qurt-quzu bir otlasın, həp bir yatağa sığınsın.
Şu günəşdən vulkan kibi həyat coşsun, qaynasın.
Dört yanımda həp yıldırım çaksın, şimşək
oynasın.
O günəşdir iştə bənim taleyimin ülkəri.

**Qadın:**

– Öylə isə anlı oğlum, o ayı, yıldızları,
Bir-birinə bitişdirib uğurlu bir günəş yap.

## TALIBZADƏ ABDULLA ŞAİQ

Pək sevgili müəllimimiz Şaiq bəg 1881-də Tiflisdə doğulmuşdur. Babası Zaqafqaziya idareyi-ruhaniyyəsi üzvlərindən mərhum Axund Mustafadır. Elmin, fəzilətin qədrini bilən saf bir zatmış. Oğlanlarını oxutmaq üçün başqa ruhanilər kibi mütəəssibanə davranmamış, onları yeni üsul üzrə oxutmuşdur. Şaiq bəg çocuqluğunda ata-annəsinə pək itaətkar olmuşdur. Daima onlar ilə bir arada bulunur, heç yanlarından ayrılmazmış. Şaiq 6 yaşından başlayaraq həyətlərində açılmış olan rüşdiyyəyə davam etmişdir. Zəka və iste'dadı sayəsində kəndini bütün xocalarına sevdirmiş, yaşının azlığı, boyunun kiçikliyi və üsullu bir çocuq olması hər kəsə onu sevdirmişdir. Şaiq ta çocuqluğundan ədəbiyyata pək maraqlı imiş, arkadaşlarını başına toplayaraq onlarla rusca oxuduqları kiçik mənzumələri farscaya və türkcəyə çevirərmiş. Şaiqin rüşdiyyəni bitirdikdən sonra, sadədil və e'tiqadkar annəsi Xorasan ziyarəti fikrinə düşmüş və Şaiqi də bərabər götürmüşdür. Xorasan annəsinin pək xoşuna getmiş və bir daha Tiflisə dönmək istəməmişdir. Bu vaxtda annəsinin əmrindən çıxmağı yapamayan Şaiq onunla bərabər qalmağa məcbur olmuş, beş sənə orada qalmışdır.

Pədərinin Tiflisə dönmələrini tə'kid edərək yazdığı məktublara annəsi: "Bən burayı pək sevyorum, burada qocalacağım və oğullarımı da burada oxudacağım" – cavabını yazmış idi.

Şaiq bəy Xorasanda qaldığı bu beş il içərisində Əbdülhəmid istibdadından Xorasana qaçmış olan açıq fikirli, inqilabçı bir edadi müəllimi Yusif Ziya bəglə bərabər yeni üsulla açmış olduqları məktəbə davam etmiş və xüsusi olaraq Yusif Ziya bəglə türkcə, farsca, tarix, ədəbiyyat, məntiq, məan, bəyan və sair elmlərə çalışmışdır.

İştə Şaiq bəgin qardaşı Ziya təxəllüsünü bu müəllimdən götürmüşdür. Təhsilini bitirdikdən sonra Şaiq bəg annəsi ilə bərabər Tiflisə dönmüş və o vaxtdan bəri yurdu və xalqı uğrunda bütün varlığı ilə çalışmağa başlamışdır. Səmimiyyətcə Şaiqin əsərləri ilə təbiəti arasında tam bir uyğunluq vardır. Hər kəsə qarşı oylə bir görüş, oylə bir salam verişi var ki, qarşısındakını minnətdar burakıyor və kəndisinə cəzb edər. Tələbəyə məktəbdə ədəbiyyat dərsi verdiyi kibi hər görüşündə, hər hərəkətində də bir əxlaq və bir tərbiyə dərsi veriyor. Şaiq yapdığı hərəkətləri bir göstəriş için deyil, ruhunun, təbiətinin istəyi ilə yapıyor. Şaiqin təbiətini olduğu kibi təsvir etmək için mə'əlsəf bizim qələmimiz pək acizdir. Bunu layiqiylə anlatmayı tərbiyyəsinin yetişdirəcəyi daha müdəqqiq və daha bacarıqlı tələbəsinə buraxmaqla həyati-rəsmiyyəsinə keçiriyoruz.

Şaiq Tiflisə dönən gündən başlayaraq xəlqinin rifah və səadətinə çalışmışdır. Bunu çəkməyən Niko-

layın səmimi bəndələri min dürlü iftiralarla "donos"-lar verərək bu parlaq ziyayı söndürməyə çalışmış və qismən müvəffəq olmuşlardı. Çar üsul-idarəsi Şaiq bəyin Qafqaziyada qalmasını zərərli gördüyündən təqibata başlamışdır. O vaxt Sərdar Divanxanəsində olan dostlarının məsləhətilə Tiflisdən uzaqlaşmaq üçün 1903 sənəsində Bakıya gəlmişlərdir.*

Burada pək sevdigi və bu gün belə sevə-sevə davam etdigi müəllimlik həyatına başlamış və bir daha Tiflisə dönməmişdir. İlk müəllimliyi 7-ci şəhər məktəbində olmuşdur. Bu gündən başlayaraq 3-cü gimnaziya və mütəəddid şəhər məktəbləri, Sabunçu rüşdiyyə məktəbi və daha sonra 1-ci e'dadi (realni) məktəbində türkcə və ədəbiyyat müəllimligində bulunmuşdur. Şaiq bəy həyatında olduğu kibi müəllimligində də səmimiyyətdən ayrılmamışdır, təmiz və tərbiyəçi əxlaqı ilə kəndisini tələbəyə pək sevdirmişdir. Yazı və ədəbiyyat dərslərinə layiq olduqları mövqeyi verərək iyi yazanları təşviq edər, xüsusi olaraq çalışdırır... Mübaliğədən heç qorxmayaraq iddia edə biləriz ki, heç bir tələbə tərəfindən heç bir müəllimin dərsi bu kadar cazibə ilə dinlənilməmişdir. Bu fitri müəllimin öylə bir ecazkar ifadəsi, oylə təsirkar tələffüzü var ki, ən laqeyd tələbə belə onu böyük bir şövq və həvəslə dinlər; Şaiq bəg dərs verərkən tələbəni o qədər cəzb edər ki, sinfində çəkilən nəfəslər belə duyuluyor. **Onun nasıl bir müəllim olduğunu bilmək üçün mütləqa tələbəsi olmalıdır.**

---

* Qeyd: A.Şaiqin Bakıya gəlişi sənədlər əsasında 1900-cü ilə təsadüf edir.



Şaiq bəg yalnız bir lisan və ədəbiyyat müəllimi olmaqla qalmamışdır. O istibdad altında inləyən, hüququ tapdanan gəncliyin həqiqi bir dostu olmuşdur. Böyük Rusiya inqilabının daha ibtidalarında göz qamaşdırıcı hürriyət günəşi qarşısında nə yapacağını bilməyərəkdən şaşırmış qalmış olan gəncligə bir təşkilat qurmağa və kitabxana təşkilinə böyük yardımlar etmişdir. Fevral inqilabının riyakar təcəllisi ilə yenə də həqarətlə çeynənən türk tələbələri hüququnun yeganə müdafiəçisi sevgili Şaiq bəg olmuş və 1918-ci sənədə açılmış olan milli sinif tələbələrinə təşkilat qurmayı öyrətmiş, o zamanın müstəbid direktor və inspektorları ilə mücadiləyə çıxmış və Maarif Nəzarətinin yardımı ilə türk tələbələrinin hüququnu tə'min etmişdir. Əksəriyyəti yabançılar təşkil edən şurayi-müəllimində boğulmaq istənilən milli siniflərin yeganə mübarizi olmuş, bu mübarizəsində böyük müvəffəqiyyətlər əldə etmişdir ki, bunu gənclik və Azərbaycan milli maarifi tarixi qətiyyən unutmaz.

220941

Şaiq bəg müəllimlik və həyati- xüsusiyyəsində olduğu kibi həyati-ədəbiyyəsində də dərin bir səmimiyyət göstəriyor, ədəbiyyatı kəndi zövqü üçün deyil, məqsəd və məfkurəsi üçün qullanmışdır. Ta çocuq ədəbiyyatından başlamış yazdığı ədəbi əsərlərindən başqa Azərbaycan maarif mədəniyyətinə bir daha böyük yararlıq göstərmişdir ki, bunu məmləkəti-



M. F. Axundov adına
Azərbaycan Dövlət
KİTABXANASI

mizin maarif tarixinin parlaq səhifələrində altun yazılarla qeyd ediləcəyi mühəqqəqdir:

– Şaiq bəgin yaratdığı tə'lim kitabları əsrlərlə sürən rus əsarətinin unutdurduğu gözəl türkcəmizi tə'lim üçün meydanda heç bir tə'lim kitabı yox ikən Şaiq bəg böyük əzmlə işə başlamış, ta çar zamanında meydana çıxarmış olduğu "Gülzar"dan başqa, "Müntəxəbat", "Türk çələngi", "Milli qiraət", "Türk ədəbiyyatı" kibi bugünkü ən mühüm tə'lim kitablarımızı meydana qoymuş ki, bu gün də bunların ikmalı ilə uğraşmaqdadır. Bu böyük müəllimin məziyyətlərindən ancaq bu kadarını ifadə ediyor. Və bu böyük dahini hər şeyi həll edəcək olan atinin layiqiylə təqdir edəcəgini ümid edəriz.

## ŞAİQİN ƏSƏRLƏRİ

Şaiq ədəbiyyatı da tərbiyə üçün qullanmışdır. Şaiqin əsərləri Azərbaycanımızın ən hicrə guşələrinə qədər nüfuz etmiş, ən qalın pərdələri keçmişdir. Onu işıq və havadan belə saxlanılan qazcığazlardan tutmuş, türkcə qonuşdurulmayan ruspərəst ailələrin çocuqlarına qədər oxunmuş, bəlləmişdir.

Asari-ədəbiyyəsinə gəlincə: "Vətənin yanıq səsi", "Arazdan Turana", "Yeni ay doğarkən", "Dilək çələngi", "Şərq gözəli"... kibi xalqımızın ruhundan doğan şe'rlərdir ki, bunların qiyməti-ədəbiyyəsini bizim aciz qələmimiz deyil, hörmətli oxucuların qüdrətli mühakimələri tə'yin edər.



Şaiq bəg ilk yazıya farscadan başlamış və təxminən altmışa qədər türkcə və farsca qəzəllər yazmışdır. İlk mətbu əsəri "Məsnəvi"dən tərcümə etmiş olduğu "Ümmətlər ixtilafı"dır.

Sair mətbu əsərləri pək sevdiyi çocuqar üçün yazdığı: "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü və xoruz", "Şələquyruq", "Murad", "Cəfər və Bəşir", "Yapışan qaz", "Kimdir haqlı?", "Ürək dikmək", "Gözəl bahar", "Çiçəklər ölkəsi", "Danışan kukla" və başqalarıdır.

Mətbu əsərlərindən "Bədbəxt ailə" və 1917-ci sənəsi kars və Ərdahan hərbzədələrinə yardım məqsədilə çıxarılan "Qardaş köməyi"ndə çıxan "İnsanlıq və ideal" ünvanlı hailəsi Şaiq bəgin ölməyən əsərlərindəndir.

Şaiq bəgin meydana çıxardığı tədrisat və qiraət kitabları: "Gülzar", "Müntəxabat", "Türk çələngi", "Milli qiraət" kitabı, "Türk ədəbiyyatı"dır.

Daha basılmamış olan mənzum və mənsur əsərləri: "Əsrimizin qəhrəmanları", "İki kötük", "İki şam ağacı", "Məktub yetişmədi", "Mərhəmətli Ədhəm", "Şair və qadın", "Ay doğdu", "Yazıya pozu yoxdur", "Bir saat xəlifəlik", "Həqiqətə doğru" ünvanlı kiçik roman və dramlardır.

# DÜŞÜNCƏLƏR

ATABABA MUSAXANLI

## ŞAİQ-ŞAİR VƏ MÜƏLLİM

Məmləkət və xalqımızın həqq verəcəyi adamlardan biri də bugünkü münəvvər gəncliyin ilk ədəbiyyat müəllimi, azəri şe'rinin böyük rüknü, dünənə qədər kirli, çamurlu sokakların içərisində atisini bir dürlü tə'min edəcək pərəstarə sahib olmayan minimini çocuqların ilk mə'nəvi pərəstarı bu gün qarşısında hörmətlərlə əyildiyimiz Talıbzadə Abdulla Şaiq babamızdır. Hər millət, hər ictimai kütlə başqalarının nəzərində kəndi hüviyyəti-şəxsiyyəsi haqqında hüsni-tələqqi iqaz edə bilmək üçün ilk öncə məktəb və ədəbiyyatlarını, bunların müəssisəsi müəllim və şairlərini irəli atyorlar. Bunların namı ilədir ki, o ictimai kütlə ictimai ruhiyyətində bir zövq duyar, bir məmnuniyyət və fəxarətlə yaşar və daima sevinər. İngilislərin "Hindistanı verir də Şekspirdən vaz keçəməyiz" tə'biri nə kadar doğru olsa gərək, iştə biz də bu gün bir məmnuniyyət və fəxarəti hiss ediyor, seviniyoruz və kəndi mühiti ictimaiyyətimiz, cəmiyyətimiz daxilində belə olsa məktəb və ədəbiyyat namınə təqdim edəcəyimiz simaların içində bu gün igirmi sənəlik ədəbi və tərbiyəvi xidmətilə təmayiz edən Şaiq babamızı görəcək və unutmayacağız. Şaiqin bütün şəxsiyyətini təsvir və təcəssim üçün kəndisinə iki nöqtədən yaxınlaşmaq icab ediyoruz: Şaiq-şair, Şaiq-müəllim!



Fəqət bunu şu bir kaç sətr içinə sığışdıramayacağımızı e'tiraf ilə haqqında vəlo ki, ümumi bir görüşlə olsun da bir takım duyğu və düşüncələrimi hörmətli oxuculara təqdim etmək istərəm.

Yenə də qeydə məcburam ki, Şaiqin həyati-ədəbiyyə və tərbiyəviyyəsi uzun-uzadı bir takım tədqiq və təhlillərə möhtacdır. Təmənna edəlim ki, mütəxəssis ədəbiyyat nəzəriyyəçilərimiz bunu ehmal etməyərək bu mühüm sima haqqında həqqilə tənvirat verəcəkdirlər.

* * *

Böyük adamların tanınmaları – kəndiləri kibi – şayani – heyrət və diqqətə layiq bir məsələdir. Xatırlıyorum, 7-8 yaşlarında idim. Yeni üsul ilə mütailəyə alışdığım sıralarda, "kəndini təhsil və tərbiyə" üsulunu hiss edərək anlamış və dərslərdən xaric saatlarda oxumaq sövqi-təbiisini o zamanlar güc və zorla adını oxuya və əzbərliyə bildiyim bu möhtərəm zatın ictimai və tərbiyəvi bir böhran içində sürüklənib gedən azəri cəmiyyətinin küçük fərdini ev tərbiyəsidən məhrum boş saatlarını küçələrin çirkin qaldırımları üzərində tə'biri-caizsə, qapaz-qapaz oynayan çocuqlardan bəni ayıran Şaiqin sevə-sevə oxuduğum küçük, fəqət nəş'əli, qafiyəli, fəqət əxlaq dərsi olan

"Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü və xoruz" və ilaxır kibi bugünkü ədəbiyyat tarixində "çocuq ədəbiyyatı" – deyə təsmiyyə edilən yazıları olmuşdur. İştə o zamandan bu günə kadar hər bir fəaliyyəti sahəsində yorulmaq bilməz bu şəxsiyyət, bütün azəri gəncliyinin nəzərində canlandığı kibi möhtərəm müəllimimizi tanımağa və yaxınlaşdıqca sevməyə başladım.

Kəndisini bizə – sinfə sevdirən bir şeyi var idisə də, o da Şaiqin bütün varlığı idi. Biz onun hər bir hərəkətini sevər, təkdirindən belə məmnun olurduq (zatən təkdiri məktəb həyatında ancaq kiçik bir nəzəri-mülahizədən ibarət qalırdı) bu bizə kafi gəlir. Bundan hər birimiz haqqını alır, cəzasını öz vicdanından tə'yin edərdi. Bir kaç sənə zərfində kəndisini təyin edərdi. Bir kaç sənə zərfində kəndisinin əsəbiləşdiyi və qızdığı bir günə təsadüf etmədik. Bakıda realnı məktəbdə son milli türk sinfinin mrəbbisi idi. Hər sənə müəllimlər şurası indində sinfimizin əxlaqca birinciliyi qazanması haqqını Şaiqdən alamayız. Yenə bütün məktəb həyatında yapılan bir yaramazlığın təhərrisinə mə'mur müdir icz və zəiflik göstərdiyindən Şaiq türk tələbələri arasındakı mümtaziyyətindən istifadə ilə bir arkadaş kibi yaklaşaraq məsələyi qayət müdəqqiqanə, qalibən bir ruh doktoru kibi cərh etməyə müvəffəq oldu.

Şaiqin tərbiyə sahəsində kəndisinə xas olmaq üzrə bir nöqteyi-nəzəri yox, bəlkə bir takım tədris



nöqsanları müşahidə edilirsə də, kəndisinə məxsus bir tərz ki, zatən müəllimin şəxsiyyətini dəxi bu təşkil ediyor, – bütün açıqlığı ilə gözəçarpamada idi. Bu tərz, bu şəkli – müamilə şairin ruhu və əxlaqı ilə təvafiq etdiyindən bunu irəli daha açıqcasına təşhirə müvəffəq olacağız.

Şaiqin simasındakı ümumi görünüş ilk öncə təsadüf edənlərinə bir bəsatət ərz edər, əliyüladə bir insan deyə vaz keçilə bilər. Halbuki bu böylə degildir, bu görüş və hökm doğru olmasa gərəkdir. Zira həyatında təmtəraq və dəbdəbədən, gurultulu süsdən qaçan Şaiqin ruhu və fəaliyyəti dəxi böylə görünməsini təbii surətdə sevənlərdəndir. Fəqət bizə qalırsa Şaiq əvvələn ruhundakı incəlik və hissiyyat e'tibarilə ən yüksək bir insandır. Saniyən, Şaiq cəmiyyətimizin yetişdirdiyi əxlaqi bədiyyələr üzərində bir şahiqədir ki, çıxılması ancaq Şaiq kibi ictimai iradə və fəalliyyətə malik adamlara, mübaliğə gəlməzsə, dahilərə məxsusdur.

Dahi diyorum, çünki Şaiq mühitimizdəki iradətiictimaiyyənin düşgün bir zmanında yetişdiginə baxmayaraq kəskin bir iradə göstərmişdir ki, kəndisinin dühasına şahiddir. Bu iradə fəaliyyəti – ictimaiyyədən ibarətdir. Bəlkə Şaiq degil bu, daha böyük və açıq bir mühitdə tənəffüs etsəydi bir əsər daha ümumi mə'nasında göstərmiş olacaqdı, buna böyük imanla sarıla biliriz.

Əvət, Şaiqin şair və müəllimligindəki yüksəkligi

bir nöqtədə toplanır ki, bunu yaşadığımız cəmiyyətin ən zəruri ehtiyacı olduğunu hiss ilə bütün mövcudiyyəti və ibdaiyyəti ilə tətmin etdigindən bu nöqteyi tənvir edəlim!

Şairligi nisbətində müəllimlik ruhu və bu ruhdakı tərbiyə qayəsi tələqqiyyatı bu nöqtənin əsəridir ki, şairə bir fövqəladəlik isnad ediyor.

Şairdəki təmiz düşünülmüş, daşınılmış əxlaqi tələqqiyyat, insani məfkurə, daha doğrusu "Şaiqlik"dir. Bu kəndisini şairin şeirində, mürəbbinin tərbiyəsində ap-açıqca göstəriyor, ən adi bir misal: "Həpimiz bir günəşin zərrəsiyiz", və başqası: "Qurd-quzu həp bir otlasın, bir yatağa sığınsın, Qu günəşdən vulkan kibi həyat coşsun, qaynasın..." və ilaxir.

Şair bunun tə'siri və amirliyi ilə hərəkət ediyor. Hissində, ruhunda, fəaliyyətində, tərzi-müamilə və mükamiləsində həp bu əxlaqi düşünüş və məfkurənin düzgün mühakiməsi vardır.

Yenə bir gün fars ədəbiyyatı dərsində Ömər Xəyyamın rübailərini oxuturkən içərisində keçən bir takım qərami və şərabi məfhumlara bəlkə heç sufi olmayan şairin rübailərinə birrər təsəvvüfi və ilahi mə'na verərək işin içindən çıxardı, şair kəndi məfkurə və hissiyatının ötəsində heç bir şey görmiyor və həpsini rədd ediyor. Başqasındakı hər fənalığa qarşu küçük bir sükut ilə "nə yapalım iyi olur" deyə keçib gedənlərdəndir.

Bununçündürki, Şaiqi müəllim olmaq həsəbilə



geniş bir əxlaqın küçük bir sükutun mərhələsi şair olduğu üçün həssas bir ruhun incə bir düşünüşün məbdəyi deyə tosif ediriz.

* * *

Möhtərəm ustadımızın şairliyindəki coşğunluq olsa-olsa bir sükut ilə ifadə edilir: Zatən sükut ən səmimi müthiç hissiyatın lisan ifadəsi degilmi?

Fırtınalı bir dənizin kübari-portəmkin, ahəngdar və munis görünən yürüşləri kadar bir əzəmət hiss müşahidə edilir. İştə şairin sükutu, iştə şairin coşğunluğu kəndisinə əhval-ruhiyyəsi e'tibarilə coşduqca səmimi və həyəcanlarının şairi geniş tərbiyə sahəsinə girdikcə ilk ədəbiyyat müəllimi-Şaiq diyoruz. Şaiq tərbiyə tarixində yad olduğu kadar ədəbiyyat tarixində də və ədəbiyyat tarixində yad edildiyi kadar çocuq ədəbiyyatı müəssisəsi deyə yad ediləcəkdir.

Əcəba, bu nə deməkdir?

Şaiq şairliyi kadar tərbiyəçi və tərbiyəçiliyi kadar da şairdir. Fitrətində əxlaqının yüksəkliyi və nəcibliyi ilə təmayiz edən Şaiqin hər kəscə müşahidə edilmiş bir vəsfini dəxi ərz etmək istərim. Şaiq istər şei'r olsun, istər tərbiyə olsun bunların qayəsində insanlıq və bunun bütün mənasilə gənclik üzərindəki ...məfkurəsini daşıyor. Ona bütün arzuları ilə yetişmək istiyor. Bu məfkurədir ki, həm şeirində, həm xüsusi və həm də ictimai həyatında hakimdir. Yaratdığı bir bədiyyə, bir əxlaq dərsi təqdir etdiyi dərslər dəxi bir

şeir oluyor. Şeirində ancaq tə'limi-"didaktik" dediyimiz tərz vardır. Deməlk oluyor ki, "ideal" şairinin iləridə söylədiyimiz "Şaiqliyi" həm şe'rində, həm də tərbiyəsində hakim ruhdur.

Müsaidənizlə Gögalp bəyin Əkrəm bəy xüsusundakı bir cümləsini xatirə gətirmək istərim: "Bəncə Əkrəm bəy bədiyyələr ibda etməmiş olseydi yenə də Əkrəm bəy olacaqdı, çünki onun ədəbiyyat tarixindəki vəzifəsi məbdələr ibda etməkdi. Əkrəm bəy şeirimizin şüuru idi, Hamid bəy şüurumuzun şe'ri olduğu kibi". Bunu küçük bir tədil ilə təkrar edə bilərsiz. Şaiq – yüksək şahiqələr yaratmamış isə də buna bir təməl atmışdır. Həqqilə sənət və ədəbiyyat fəlsəfəsi nəql etməmişsə, buna bir vasitə olmuşdur. Zatən zaman və mühit e'tibarilə mətlubimiz bu kadar olurdu. Artıq ictimai həyatın daha bir çox zamanlar mə'nəvi ehtiyacları möhtərəm şair və müəllimimiz tərəfindən tətmin və is'af ediləcəyinə böyük uğurlu gəncliyin umudları vardır.

## ŞAİR VƏ ÇOCULUQ

Şaiq yalnız rəsmi vəzifəsilə degil, yazıları, əsərləri ilə də pək böyük bir müəllimdir. O, yazarkən məhkum halımız üçün hakim bir istiqbal yaratmağı düşünmüş və böyük dühasını bu gün küçük görülən çocuqluğu tərbiyə için işlətmişdir.

Şaiqin tərbiyə etməyə çalışdığı çocuqluq, sıxıcı qəfəslərə sıxılaraq istənilən kibi qonuşma öyrətilən



papağan yavruları kibi, boğucu çar-rus əsarətinin ruslaşdırma siyasəti altında gözü qapatılan, anasilə qonuşamayan bir çocuqluq idi...

Əvət Şaiqin "Muradı"ı, "Şələquyruğ"u, "Tülkü və Xoruz"u yazdığı zaman, bənliyindən çox uzaq, türkcə anlamayan, qismən ana, ev tərbiyəsi belə-yabançı bir dildə öyrədilən pək zavallı bir çocuqluq vardı. Annələrinin, babalarının dilindən belə türkcəyi "qaba" və "dəyərsiz" eşidən bu öksüz yavrulara türkcənin pək zərif və pək dəgərli olduğunu Şaiq bildirdi, türk yavrularına türkcəyi Şaiq öyrətdi.

Qaranlıqlar içərisində şaşırmış qalmış və aldadıcı işıqlara qoşaraqdan məhv olan bu öksüz yolçular üzərində bir qurtuluş qığılcımı parlamış, bir nicat ülkəri doğmuş, gedəcəkləri yolu göstərmiş, itirdikləri izi buldurmuşdu. Bu ülkər Şaiqin yazıları, Şaiqin yaratdığı çocuq ədəbiyyatı idi.

Sıcaq annə qoynundan ayrılıb soğuq yabançı qucağında böyütülən, şahin ikən qarğa yetişdirilən zavallılar məktəbdə də ruhuna, bənliyinə uymayan yabançı tərbiyəsi altında hər şeyini itiriyor və daha ilk dörd sinfi bitirmədən səfil bir həyata atılıyor, sokak ortalarında, bazar bucaqlarında çürüyordular.

Məsum yavrular istəməyərək oxuduqları bu yabançı dilini öyrənmək üçün yenə də rusca mütaliəyə məcbur edilir ki, şimalın buzlu mühitindən, soğuq təbiətindən, dondurucu havasından anlatan bu hekayələr od oğullarının sıcaq qəlbini tə'min etmiyor,

müşviq ruhunu oxşamiyor, odlu diləklərinə uyğun gəlmiyor, okuyamiyor, burakiyor və həyat-mühitə yabançı qalıyordular. Onlara od yurdunun ılıq mühitindən, mavi səmasından, qızıl güllərindən, yaşıl ormanlarından, zümrüd ovalarından bəhs edən hekayələr, Şərqin dünya gözəlindən, türk elinin təmiz əxlaqınan anlatan əsərlər lazımdır...

Qulaqlarını çanlatan bu yabançı gurultular içərisində, sıxıcı qəfəslərə tıxılıb da, annələrinin şirin şaqırtıqları unutdurulan bu zavallı bülbül yavruları bu saf səsi Şaiq bəyin "Tıq-tıq xanımından", "Yaxşı arxa"sından, "Gözəl bahar"ından, ...eşitiyor, zümrüd ovalarını, şən yuvalarını anıyor, oraya qovuşmaq üçün çapalıyordular...

Şaiqin çocuqlar üçün yaratdığı əsərlər və vəqtinin bütün qaranlıqlarına rəğmən üfüqlərimizdə qurtarıcı bir işıqla parlamış, bütün gurultularına rəğmən mühitimizdə hər səsin fərqində yüksəlmiş, öksüz çocuqluq tərəfin-dən-fırtınalar içərisində girdaba sürüklənən bir gəmiçi dəniz fənarını, imansız şimal elinin yuvalarını dağıdaraq öksüz buraxdığı quş yavrularının annələrinin munis və qurtarıcı səsini qarşıladığı kibi-qarşılanmışdır.

Annə hicranıyla ötüşmək istəyən yavrular həp Şaiq bəyin "Dağlar soltanı" səsini tərənnüm edir, "Gözəl bahar"ını təmsil edirlər.

Şaiq bəyin ən böyük məziyyətlərindən biri iştə bu şimalın soğuq ruzgarları qarşısında donmaq üzrə



bulunan türk qanını coşdurmaq, ölməkdə olan türkcəyi diriltməkdədir.

Şaiq yazılarını adi qələmlə kağıza yazmamış, qüdsi bir əllə qəlblərə qazmışdır. Onu hər cocuğun yalansız dilində, hər yavrunun təmiz qəlbində bulursunuz.

O, yazıları zamanın daş illəri-vaxt-vaxt xırpaladığı, yaramaz bir çocuq topu kibi murdar çamurlara, kəskin qayalara çarpdığı bu günkü gəncliyin qəlbindən belə siləmədi, siləmiyor...

Şaiqin çocuqlar üçün yapdığını, zamanın qırdığı qələmimiz, mühitin boğduğu səsimizlə anlatamayız, onu layiqiylə bilmək üçün məsum dimağlara, təmiz ürəklərə, yalan bilməyən yavrulara sormalıdır.

***V... ("Şaiq nümunə məktəbi"nin tələbəsi olan məşhur jurnalist Vəli Hacı oğlunun imzası belə idi: V...).***

## ŞAİQ VƏZİFƏŞÜNAS

Şaiq deyildimi fikrimizdə böyük bir bina doğuyor. Bu bina şimdi ali darulmüəllimin cünbində "Nümunə Məktəbi" və əmələ fakültəsi binasıdır.

Əcəba bu bina ilə Şaiqin beynində mərbutiyyət nərədən başlar və bunun əsbabı nədir?

1920-ci sənəyədək burada sabiq birinci realni məktəbi yerləşiyordu. Bu rabitəliyi də orada aramalıyız. Bu binada ruslar arasında ilk dəfə olaraq türk məktəbi , türk sinifləri təməli qoyulmuşdur. Bu bina

həqiqi bir xalq ocağı olmuş oluyor və olacaqdır da. İştə bu milliləşmə, bu türkləşmədə ilk dəfə olaraq Abdulla Şaiq bəyin səyi və əməli sayəsində hüsulpəzir olmuşdur.

Əvət altı sənə bundan əvvəl bu binada ilk türk məktəbi tə'sis olundu. Bu günkü iki dərəcəli nümunə məktəbində son sinfi o ilin türkləşmiş məktəbin hasilatındandır. Bunu bu dərəcəyə yetirən Abdulla Şaiq oldu. Kamal Cəsarətlə deyə bilərik ki, bunu yalnız Şaiq bəg yapdı.

Odur ki, şimdi **Şaiq adı çəkiləndə "Nümunə Məktəbi"**, "Nümunə Məktəbi" anılanda da Şaiq xatirə gəlir.

Təbiidir ki, bu qədər sıxı rabitənin bir tarixçəsi də olmalıdır. İştə o tarixçə bundan ibarətdir: İnqilab nəticəsi olaraq türklər içində nəhayət milli məktəb açılmasına izn verildi.

Azərbaycan türklərini vəhşi ruslar bir bıçıq əsr əsarətdə saxladıqdan və türkləri rus duyğusilə bəslədikdən sonra bu əmri verdilər.

Təbiidir ki, ümidimizi ruslaşmış ziyalılardan çəkməli idik və çəkməliyiz də... Odur ki, bizə milli bir tərbiyə görmüş yaxud bənligini tanıyan bir mürəbbi lazımdı. O zaman meydana Şaiq bəg atıldı.

Aruzməndi olduğu bu vəzifəsinin heç olmasa bir hissəsini yapmayı düşündü. Çalışdı, çalışdı, önə keçdi və vəzifəsini yapdı. O vəzifə nə olduğunu biliyordu. O, anladı ki, "Vəzifə qayət qət'i bir əmri – dərunidir



ki, bizi sırasına görə hərəkət etməyə və yaxud etməməyə, bizə yapmağı və yaxud yapmamağı əmr edər". O bildiyi vəzifeyi istədiyi kibi deyil və bəlkə bunun tez yer tutması üçün çarpışmaya borcludur və bunun içün həqiqi bir inqilabçı kibi qorxmadan vaxtdan istifadə edərək, müəllim yoxluğuna, ataların türk məktəbələrinə əhəmiyyət verməmələrinə baxmayaraq türk sinfi açmalıdı.

Buna rus çinovniklər və çarpərəstləri rusçuluq fikri daşıyan direktorlar və ələlxüsus inspektorlar qarşı çıxdılar. Şaiq bunları həqiqət qılıncı ilə devirdi və onları həqiqət xatirəsi üçün çignətən xəlqə yaklaşdı.

Əvət o bunu yapmalı idi. Həm də bu gün yapmalı idi. Çünki əgər yapmasaydı vicdan və Azərbaycanın gələcəyi onu üzəcəkdi. Və gələcək nəsli ata tərbiyəsi ilə tərbiyələndirməkdən ötrü işə atıldı və müvəffəq də oldu.

Şimdi bu sinfi dolduracaq mütəllimlər əcəba varmıdır? Yenə qarşımızda bu ruslaşmış ataların ruslaşmış oğulları duruyor. Bu da çətin iş idi. Fəqət Şaiq buna da təhəmmül edərək zor ilə rus sinfindən onları çıxararaq türk sinfində əyləşdirdi, qaçdılar, bir millət çobanı kibi geri qaytardı və kəndisi başa keçdi.

(Bunu da söyləyəlim ki, həmən o ataların tərbiyəsindəndir ki, gördüyümüzə şahidən neçə nəfərin geri rus məktəbinə gedib orada oxumalarıdır).

Hələ igirminci sənədə hər müəllim qaçaraq para

arxasınca qoşduqları zaman o məktəbi buraxmadı. Və o gündən e'tibarən demək olur ki, yenə bu bina içərisində çalışdı. Nisan inqilabından sonra burada ali darülmüəllimində və əmələ fakültəsində dərs dedi və deyir və təməl daşını qoyduğu "Nümunə Məktəbini" də buraxmıyor və bəlkə buraxmayacaq da...

Şaiq bəyi əcəba kimlər tanımıyor, "Mirzə Abdulla" deyənlərdən tutmuş "Abdulla Şaiq" deyən ziyalılaradək hər kəs tanıyor, hər kəs nədənsə onun qarşısında bir hörmət duyuyor.

Nəhayət kəmali-qətiyyətlə deyə bilərəm ki, mühitimiz Abdulla Şaiq kibi əzm və iradəli müəllim və vətəndaş pək az yetirdi. Əgər yetirsə idi bu gün idarələrimiz türklşərdi. Odur ki, son söz olaraq kəmali-cəsarətlə söyliyorum ki, nəsli-atini yaradacaq nəsil hazırın müəllimi və mürəbbisi Abdulla Şaiq bəg olduğundan, o gənc nəslin yapacaqları işləri anladı, həpsi ona mədyundur. onları tərbiyə etdi. Ah bu ad nə kadar böyükdür. Bu ad vəzifəşünaslara bir örnək ola biləcəkmi?!



# D U Y Ğ U L A R

## ŞAİQ...

Nə diyorlar: bəşərlə firdovsə
Dönəcəkmiş degilmi, dünyamız?
Biri: "İnsan mələk olurmu?"-desə-
Bən derim: "Bir misali var bakınız:
Bu təbii şüari-munislə,
Bəncə: "Şaiq" nümunədir mələkə..."

***İsmayıl Hikmət***

Bakı, 23 kanuni əvvəl, 1923

* * *

**XƏLİL FİKRƏT**

## MÜƏLLİM ŞAİQ

Diyorlar ki, müəllimlik sənəti, xüsusi bir iste'dad və qabiliyyət məsələsidir. Bu sənətdə müvəffəqiyyət, bilxassə ruhdakı gözəlliyə tabedir. Şaiqin iyi bir müəllim və mürəbbi olacaq nə gözəl ruhu vardır. Şaiq tam mə'nasilə iyi bir adamdır və tam mə'nası ilə məsləkini məfkureyi-ruhunda canlandırmış bir şəxsiyyətdir. O həyatın hər dürlü çirkinliklərindən, iftiradan, xəyanətdən, hiyləgərlikdən, yalançılıqdan, həsədçi-

likdən, kibr və qürurdan, xudbinlikdən, tənbəllikdən, xülasə gərək bir fərdin ruhunu və gərək bir cəmiyyətin yaşamaq qabiliyyətini məhv edən hər dürlü fənalıqlardan kəndisini mühafizə etmişdir. Biz bütün müəllimlər ruhən Şaiqə bənzəyə bilərsək nə mutlu!

## CAVİD

Pək dəgərli arkadaşım Abdulla Şaiq haqqında bənim də təəssüratım soruluyor. Ehtimal ki, möhtərəm məsləkdaşlar o xüsusda bir çox geniş mütaliələrdə bulunurlar. Mə'təəssüf bən heç bir şey yazmayacayam, daha doğrusu yazmayacayam. Çünki vaxt darlığı, bəndəki itaət xassəsi, eyni zamanda hissiyyat daşqınlığı əsla buna imkan vermiyor.

İnsanlar rəsmi zamanlarda bəlkə rəngin təsvirlər, parlaq sözlərlə mücəssəm bir bəlağət kəsilə bilirlər; lakin hissiyatın pək coşğun dəmlərində, pək səmimi dəqiqələrində isə - əfsus, - sükutdan daha bəliğ bir şey bulamazlar. İştə bən də onlardan, o acizlərdən biriyim.

## ŞAİQ KİMDİR?

İyirmi ildən bəridir ki, bütün Azərbaycan gəncliyi onu pək gözəl tanıyor.

Əvət hər kəscə: O çalışqan və təcrübəli bir müəllim, həssas, nazik bir şair, xülüq və səmimi bir insandır. Fəqət bəncə: o, bir heçdir ki, – gözə çarpan – bir çox yaldızlı varlıqlardan daha böyük, daha möhtərəmdir.



* * *

**QAFUR ƏFƏNDİZADƏ**

## ƏGƏR ŞAİQ OLMASAYDI...

Əgər Şaiq olmasaydı "Milli qiraət"imiz yok idi.
"Müntəxabat" nəşr olunmamışdı.
"Ədəbiyyat dərsləri"ndən məhrum idik.
"Türk çələngi"ni görməmiş, "Türk ədəbiyyatı"nı eşitməmişdik. Əgər bu kitablar olmasaydı, məktəblərimiz yoxsul, müəllimlərimiz yalavac qalmışdı. Sözün qısası: **onun varlığındakı əhəmiyyəti layiqiylə idrak edə bilmək üçün bircə dəqiqəlik yokluğunu düşünməli!**

Qoca müəllim, bə'zən şair də olmaq istiyor və olur da! Ancaq bən onu müəllim görüb istəyənlərlə bir yerdə sevərim.

Və istərəm ki, türklərin Müəllim Nacisi kibi o da bizim Müəllim Nacimiz olsun.

Onun igirmi sənəlik bu vətənə olan xidməti o kadar böyükdür ki, vətənin ona olan ehtiramından da... düşüniyorum ki: şu Sabir heykəlinin bulunduğu meydança Şaiq heykəlilə bəzəniyorsa nə kadar gözəl olurdu.

* * *

**HÜSEYN SADİQ**

## ABDULLA ŞAİQ

Abdulla Şaiqi ilk olaraq 1903-cü ildə görmüşəm. O zamanlar bən üçüncü rus-müsəlman şəhər məktəbinin üçüncü sinifdə mütəəllim idi. Vücudca zəif, yaşca 3-cü sinif mütəəllimlərindən böyük olmayan və boyca kiçik olan, bu yeni müəllim xəstələnən şəriət və elmi-ilahi müəllimi əvəzinə müvəqqəti olaraq bizə tarixi-müqəddəsdən dərs oxudacaq idi. Dərsin mövzusu "Nuhun tufanı" idi. Hər yeni müəllimin başına gələn qəziyyə Şaiqin də başına gəldi. Sinfin intizamı pozulmuş, çocuqlar müəllimi dinləmiyor, səs və küydən müəllimin səsi eşidilmiyor. Gənc müəllim gücbəla tənəffüsə qədər kəndisini saxlaya bildi. O gündən sonra bir daha bizim sinfə gəlmədi.

* * *

1905 inqilabından sonra Azərbaycan xalqında, xüsusilə Bakı mühitində bir intibah dövrü başlamışdı. Qəzet və məcmuələr çıkıyor, məktəblər açılıyor, cəmiyyətlər təşkil ediliyordu.

1908-ci ildə qeyri-rəsmi olaraq bizim ədəbi bir cəmiyyətimiz var idi. Üzvləri ədəbiyyat maraqlılarından ibarət olan bu cəmiyyət, daha doğrusu dərnək həftədə bir kərə cümə günləri arkadaşlardan



birinin evində toplanar, şe'rlər oxunar, onun üzərində müzakirə başlardı.

Bizim cəmiyyətimizi ən çox əlaqədar edən şey əski və yeni ədəbiyyat məsələsi idi: Şeiri yalnız qəzəldən, qəsidədən, sənətkarlığı yalnız mühəssənatiləfziyyədən, cinasdan ibarət bilən əskipərəstlər özlərinin bəlağəti – iqnaiyələrilə yeni ədəbiyyatı baltalıyor, bə'zi ufaq-tufaq, zəif ədəbi parçaları iləri çəkərək yeni ədəbiyyat tərəfdarlarını tənqid ediyorlardı. Xüsusilə bizim cəmiyyətdə iki nəfər ixtiyar, əski qəzəlçi şair var idi ki, onlara olan ehtiramdan dolayı əskilik hər zaman yeniliyə qalib gəliyordu. Bu adamlar gənc həvəskarları öz nüfuzları altında almışlardı.

**Bir gün bilməm nərədə isə:**
**"Müzlüm gecədə nişanlı bir qız,**
**Bin hüzn, ələm içində yalnız"... –**

beyti ilə başlayan Abdulla Şaiqin bir şe'rinə təsadüf etdim. O vaxtadək Abdulla Şaiqin şe'rlərindən o qədər xoşuma gedəni olmamışdı. E'tiraf etməliyəm ki, yeni ədəbiyyat haqqında bu şe'r bana müəyyən bir fikir verdi. Bu şe'ri dəftərçəmə yazdım. Cümə günləri bizim cəmiyyətin toplanışı olurdu. Mübahisə başlandı. O gün məhəlli qəzetələrin birində çap edilmiş -guya yeni şe'r imiş qayət zəif mütərcəm bir parçayı birisi tənqid etməyə başladı. Bu adam işbu şe'ri tənqid deyil, mədh ediyor, yeni ədəbiyyat tərəfdarlarını da "heç bir şey bilməməklə"

töhmətləndiriyordu. Hər kəs onu təsdiq etdi. Sonra Səd'inin:

شرف مرد بجود است کرامت بسجود ،
هر که این هر دو ندارد عدمش به ز وجود *

mətlə'li qəzəlinə yapdığı türkcə təxmisini oxudu. Hər kəs bəyəndi. Ayağa qalxdım. Müsaidə istədim. Yeni bir şe'r oxuyacağam – dedim, Şaiqin "Məzlum gecədə..." şe'rini oxudum. Həpsi dinlədi, diqqətlə dinlədilər. Şeir məclis üzərində bir tə'sir buraxdı. Sordum:

Əcəba, bu şe'rin nərəsi fəna?

Kimsə cavab vermədi. Əvvəlki təxmis ilə müqayisə etdim. Məclisin təmamini olmasa da, əksəriyyətini kəndimə tərəfdar buldum.

* * *

Bu tarixdən sonra Şaiqə xüsusi bir ehtiram bəslər, yazılarını oxurdum. Hələ çocuqlara məxsus yazdığı əsərciklərində böylə bir tə'sir buraxmışdı ki, Şaiq artıq çocuq ədəbiyyatı şairi olaraq qalacaq. Fəqət 1915-ci ilin son baharında Şaiqə şəhər bağında təsadüf etdim. Yay səyahətindən yenicə qayıtmış idi. Uzun-uzadıya görüşdük. Yeni yazdığı "Şair və qadın"

-----------------

*Tərcüməsi: Kişinin şərafəti, ləyaqəti əliaçıq və səxavətli olmasındadır.
Bu iki xüsusiyyət onda yoxdursa, olmamağı olmasından yaxşıdır.



mənzum pyesini bana oxudu. Fikrimi dəyişdim. Şaiq yalnız çocuq ədəbiyyatı şairi deyil, yeni ədəbiyyatımızın mühüm bir rüknü olmaq hissini bana verdi.

Bizim ədəbiyyatımız 1905 inqilabından sonra bir inqilab dövrü keçirdi. Məhəmməd Hadi özünün gurultulu, təmtəraqlı, Sabir həzl və məzhəkəvi şe'rlərilə əski ədəbiyyatı əsasından yıkdılar, onun yerində yeni binayi tikəmədilər. **Yeni ədəbiyyatın təməl daşını qoyanlardan birisi Abdulla Şaiqdir.**

Abdulla Şaiq yalnız bir ədib və şair olaraq qalsaydı, müəllimlik vəzifəsiylə, məktəb kitabları təsnif etməklə iştiğal etməsəydi, Azərbaycan ədəbiyyatına qiymətli və mühüm əsərlər verə bilərdi.

Şaiqdə qayət həssas incə bir şair ruhu yaşar. Bu ruh onun şe'rlərinə bir incəlik verər.

* * *

**ŞƏFİQƏ ƏFƏNDİZADƏ**

## MÖHTƏRƏM MÜƏLLİM

İstibdadın müdhiş quruluşu içində bütün türklük əzilməkdə ikən möhtərəm şair və müəllimimiz Abdulla Şaiq əfəndi gecə-gündüz, həm də bilaram kəndi kitabxanasının kitabları arasında çalışaraq xalqını tərəqqi və səadətə sövq etmək üçün çarələr arayordu. Qara cəhalət buludları yurdumuzda bütün həşəmətilə hökmran, istibdadın ağır zəncirləri bizi bütün-bütünə çeynəyib əsir etmiş olduğu bir zamanda bu möhtərəm

şəxs bütün varlığıyla, mühitini dolduran bu zülmətə qarşı üsyan etmiş, cəhalətin qara zəncirlərinə qarşı amansız bir müharibə e'lan etmişdi. Bunula yurdunda maarif günəşinin doğmasına çalışıyordu. Nə istibdadın qəddar pəncəsi, nə də türklüyün müqəddaratını qanlı ləkəli əllərinə keçirmiş olan çarların qara buludları onun həvəsini qıramadı. O ancaq uzaq, pək uzaq bir dövrün nurunu, şəfəqli dünyasını, ziyalı, münəvvər gənclərini görmək arzu ediyordu. Buna böyük imanı var idi...

İllər keçdi, zamanlar dəyişdi... Möhtərəm ədibimiz bundan pək uzaqda görəcəyini ümid etdiyi halı bu gün yanı-başına toplanmış gənc məktəblilərdən göriyor. Onun sakin odasında bilaram çalışıb-çapaladığı zəhmətlər bu gün böyük səmərələr bəxş etmiş, əkmiş olduğu toxumlar bu gün meyvə vermişdir.

Bu gün sevgili şairimiz bu müsamirədə məhsul həyatı olan meyvələrin ləzzətini dadıyor.

İştə möhtərəm Abdulla Şaiqin bu xidmətini heç kimsə unutmayacaqdır.

Azərbaycanda olan intibah dövrünün ən böyük qəhrəmanı sayılan Abdulla Şaiqin namı dünya durduqca tarixi ədəbiyyatımızda baqi qalacaq və o vaxtın bütün qalibləri onu daima hörmətlə anacaqdır.

* * *

Təbiətçilər fabrikalara gedir, riyaziyyatçılar dağlara dırmanar, təcrübə yapar, nəticə çıxarırlar... Ədəbiyyatçılara da iyirmi illik bir təcrübəyi və çıxardığı parlaq bir nəticəyi, həyatdan doğan canlı bir misalı göstəriyoruz:

Şaiq və həyat fəaliyyəti!..

Sevgili təcrübəçimizi, məsləkdaşlıq səlamilə alqışlarız!

***Ali Pedaqoji İnstitutunun***
***ədəbiyyat dərnəyi.***

* * *

**VƏLİ HACI OĞLU**

## ŞAİQİ ZİYARƏT EDİRKƏN...

Bir gün Şaiq bəg bizi çağırtmışdı. Bəlkə bizə bə'zi kitablar, yaxud başqa şeylər verəcəkdi. Axşam qararmışdı. Evinə yetişdik. Yuxarıya çıxdıq. Qapıyı çaldığımız zaman arada balqonun camları vasitəsilə digər odadan bizi gördü və üzündə bir asari-mənuniyyət bəxş bəlirdi və gülümsəyərək:

-Xoş gəldiniz-dedi

Bizi aldı, bir odayı keçərək yarım qaranlıq, yalnız mizin üzərində bulunan bir mütəhərrik elektrik lampası ilə işıqlanan odaya apardı. Lampanın yaşıl abajurundan saçan işıq odanın qaranlığını boğamıyordu. Məşğul olurkən daimi arkadaşı olan Şaiq bəgə qaranlıq, zülmət hücum etməsin deyə yalnız mizin ətrafını işıqlandırır idi. Bizə yer göstərdi, oturduq. Kəndisi

bizim üçün çay gətirməyə gedərkən odasını bir seyr etdim... O qədər küçük oda ki... həm yatacaq, həm də məşğuliyyət odası. Xatirimə oda sıkıntısı barəsində bir dəfə şikayət etdiki gəldi. Bütün kitabları pəncərəyə dağınıq halda səpələnmiş və divarda küçük kitablıq kitab ağırlığında uçacaqcasına sallanmış düşəcək zənn edilir, kəndisi məşğul olduğu miz üzərində bir çox kitablar, yazılar, yarıda burakılmış, yarı qaralanmış kağızlar... hələ nəzərləri altında əriməkdən məhfuz olan kitablar...

Hər tərəfə baxılsa kağız, kitab...

Hürriyyət istəyən, papqada qalmaqdan bıkmış kağızlar qəfəsdən başını dışarı çıxararaq quş kibi ovuclarını çıkarmış və küçük yel əsərkən sallaniyor, sallaniyorlardı... Divarlarda rəsmlər əksərisi mütəəllimləri ilə bərabər aldırdığı rəsmlər... Bir yanda Şaiq bəy gənc, bir yanda uzun bığlı, bir yanda üzü gülər, bir yanda dalğın...

Kitabları qarışdırmağa başladıq. Əksərisi rus ədəbiyyatı tarixinə aid kitablar idi. Birdən zərafət məqamında söylədiyi "Rus ədəbiyyatını türk ədəbiyyatından yaxşı biliyorum" – sözü xatirimə gəldi.

Şaiq odaya daxil olmuşdu, həm də qucağında kiçik oğlu.

Və sinidə də çay gətiriyordu.

Qucağında saxladığı gər çevik mavi gözlü, sarı saçlı oğlunun alnından bir öpərək: – Bilməm kimə bənziyor, – bəni tanıyorsunuz, təbii anası da bənim kibi, fəqət bu o kadar nadinc, bir dəqiqə rahat qoymayır, dedi. Çocuq babasının saat zəncirini çəkiyor, əlinə gələn şeyləri dağıtıyordu. Şaiq bəg davam etdi:

– Hələ heç kəsi sevəməz. Heç kimin qucağına gedəməz. Yalnız bənim yanımda sakit oluyor – dedi.

Bir qədər qonuşduqdan sonra qonşuma Şaiq bəgin üzərinə döndü və halından izahat veriyordu:

– Bilsəniz nə qədər yoruluram. Hələ iki sənə bundan əvvəl o qədər işim çox idi ki, material yox, mütəəllim və müəllimlər üçün heç bir rəhbər yox. Mütləq bunu kəndimizin yapması lazım gəliyor...

Bir qədərdən sonra:

– Hələ imdi də o qədər çalışyorum. Nə qədər işimdən azad edildim, onları buraxdım, yenə qüvvəmdən artıq çalışyoram.

Bərəkət versin ki, şimdi yaxşıdır, hələ o əvvəlləri nə ədər çətin idi. Məktəblərin halı nə qədər bozuqdu. Bütün müəllimlər belə məktəbə qaçıyorlardı. Bərəkət versin, şimdi müəllimlərin də, mütəəllimlərin də halı iyiləşmiş.

* * *

Qonuşma cərəyanı bir məktəb üzərinə gəlmişdi. – Pək idarəçi adam əgər olmasaydı məktəb dağılacaqdı. Doğrudur, alim və ziyalılarımız var. Fəqət idarəedici qüvvələrimiz pək az... Tuhaf burasıdır, onlar kəndi qüsurlarını da görmürlər.

Gülə-gülə: – Siz oylə olmayasınız. Siz atanızın, hətta sizdən böyük olan qardaşınızın yolu ilə belə

getməyiniz. Onların və bizim nəzərlərimiz sizi maziyə çəkmək istər. Siz yeni yol bulun, – diyordu...

* * *

Mərdivənlərdən düşürdük. Bu gün elektrik lampası yoxdu. Mərdivən qaranlıq idi...

Birdən:

– Nə olur ki, bakınız, dün işıqdı,
Bu gün sönmüş həyat da böylə... – Dedi, ayrıldıq.

* * *

**SEYİDZADƏ BƏDRİ**

## MƏKTƏBMİ! GÜLŞƏNMİ!

***Abdulla Şaiq qardaşıma***

Məktəbi-gülşəndə inləyən bülbül!
Bir çox zamanlardır gəlir avazın;
Anlat bir neçindir bu açdığın dil,
Bu güllərdən söylə, nədir niyazın?!

Nalənin tə'siri getməz dillərdən,
Almışam bən xəbər canlı güllərdən;
Əks-sədasıdır gəlir ellərdən
Ucaldığın göylər, yandıran sazın.

Qələmdən səpdiyin nurlu jalələr,
Çıkardı torpaqdan güllər, lalələr.



Çəkmə bundan belə acı nalələr,
Yetər şam kibi suzü güdazın.

Əməllər toxmunu əkdiyin bağlar,
Göyərib açmışdır yaşıl yapraqlar,
Cəhalət zəhmilə sınan budaqlar
Yetişib olmuşdur məhrəmi-razın.

* * *

**ATABABA MUSAXANLI**

## HÖRMƏTLİ ŞAİQƏ

Qanadından şəfək saçar bir mələk,
Özvan yurduna, aşina quşdu
Qarşılarkən onu: ay, ülkər, çiçək
"Şaiq - Şair"-deyə hayqırdı, coşdu.

Sevincindən nazlı mələklər çağlar!
Biz gülürüz, artıq fələklər ağlar!

Yapdığın dalğalar, dənizlər aşmış,
Taleyiniz uğurlu bir günəşmiş,
"Yeddi ülkər" bir-birinə dolaşmış,
Yaradan ruhuna yəqin bir eşmiş.

Səsləniriz: dağlar, dağlar, ah dağlar!
Sən gülürkən, gülün, bülbülün ağlar.

## MÜƏLLİM

***Pək sevgili Abdulla Şaiq***

Soğuq, qan donduran qaranlıqların
Qorxunc dalğaları varlığı boğar...
Çox sürməz bu dalğın qaranlıqların
Qoynundan pək parlaq bir günəş toğar.

Hər şey həyat bulur, varlıq canlanır,
Düşənlər yüksəlir, enən saflanır,
Elindən ayrılan gəlir, toplanır,
Qoşar, ilərilər – "Yazı pozulmaz!"

Varlıq çalxalanır, qanlar saçılır,
Dilək dünyasına yollar açılır.
Saxta yıldız sönər, şəfəq saçılır,
Bu sübhün çulpanı* – müəllim-toğar.

Toğar səmasında vəzifə bəklər,
Toğarkən də, sönərkən də həp gülər,
Arxasında günəş doğar, gülümsər,
Qaranlıq boğulur – yasa pozulmaz!

---

*Qeyd: Dan yıldızı



* * *

**ADİL NƏCDƏT**

## ŞAİQ ƏFƏNDİYƏ

Ey yeni gəncliyin əski bağbanı
Yurdu qaranlıqdan qurtarmaq üçün,
Bəzətmək üçün bu Azəristanı –
Sən toxmlar səpdin, pək çox çalışdın.

Qəlbə nüfuz edən əsərlərinlə,
Qaranlıq pərdəyi yırtmaq istədin.
Usanmaq bilməyən əməllərinlə
Nəhayət zülmətə sən qalib gəldin.

İştə bu gün sənin şən bağçaların
Çiçəklər açaraq meyvələr verdi.
Yeni həyat üçün çaldığın sazın
Əski ən'ənəyi artıq məhv etdi.

Gənclik üçün sənin qoyduğun yollar
Hər yerə ziyalar, nurlar saçıyor,
Kükrədi əkdiyin bütün toxumlar
Bu gün gənclik səni həp alqışlıyor.

* * *

**MƏHƏMMƏD SƏAD**

## ŞAİQƏ

Ey azər şairi sən çox çalışdın,
Kəndi şe'rin ilə həqqə alışdın,
Cəhl odu ilə hərbə qalkışdın,
Yazıq Şaiqləri olmayanlara.

İnlətdin rübabın xəstə telini,
Oyatdın uyqudan sən türk elini,
Döndərdin bahara xəzan yelini,
Yazıq Şaiqləri olmayanlara.

Vətən bağçasının oldun bağbanı,
Həzin şe'rin oldu xəstə dərmanı,
Xoş günə çıkardın Azərbaycanı
Yazıq Şaiqləri olmayanlara.

* * *

**HÜSEYN NƏCDƏT**

## İTHAF

***Pək möhtərəm Abdulla Şaiq bəyə***

Şən olan yerləri zalım xəzandan
Bayquş yurdu kibi viranə gördün,
Ayrılmadın onun eşqindən bir an,
Çalışdın, çarpışdın, şənlənsin dedin.



Baxdın ki, annənin başında siyah,
İnlər o, yaralı, bir əsgər kibi.
Tərənnümü müdam ağlayıcı ah...
Bir zülmət quyusu görünməz dibi.

Fəqət o zülməti məhv edərək sən
Nurlandırdın yenə ana diyarı,
Qəm dolu yerləri eyləyərək şən
Sevindirdin sən o pək nazlı yarı!...

* * *

**MİKAYIL RZAQULUZADƏ**

***"Ədəbiyyatçılar nə yaparlar?!" deyənlərə***
***"Şaiq nə yapdı?!" – soracağım...***

# TƏBRİKLƏR

**TAĞI ŞAHBAZİ**

## İYİRMİ İL

Xalqımızın savadsızlığı, cəhalətlə mübarizə aparmaq və ölkəmizi maarif və mədəniyyət nurilə işıqlandırmaq üçün şura Azərbaycanı bu gün mühüm bir maarif cəbhəsi açmışdır.

Bu cəbhədə müvəffəqiyyətlə irəliləmək və qalib gəlməkdən ötrü bizə qəhrəman müəllimlər lazımdır ki, onlara da əşhəddi-ehtiyac hiss olunur.

Azərbaycan maarifinin ən zərbi-məsələlərindən ədd olunan müəllim hazırlamaq işi bu kibi iqtidarlı və təcrübəli əski müəllimlərimizin öhdəsinə düşən müqəddəs bir vəzifədir.

Sayı az olan böylə müəllimlərin arasında Talıbzadə Abdulla Şaiq şərəfli bir mövqe tutuyor. İyirmi il zərfində yorulmaqsızın müəllimlik vəzifəsini ifa edən Abdulla Şaiq ustadımız Azərbaycan ölkəsinə bir çox mədəni qüvvələr verməyə müvəffəq olmuşdur.

Sabiq Bakı realni edadi məktəbinin türk dili müəllimi olan Abdulla Şaiqin sə'yi və zəhməti sayəsində həmən məktəbdə təhsil edən türklər türkcəyi öyrənmişlər. Eyni zamanda mütəallimlərin qiraət və tə'lim kitablarına olan ehtiyacını rəf etmək üçün bir çox kitablar təhrir və təlif etmişdir.



İştə maarif cəbhəsində iyirmi il çalışmaqda olan möhtərəm müəllim və şair Abdulla Şaiqin bütün xidmətləri göz önündədir...

Bu yiyrmi illik fəaliyyəti münasibətilə möhtərəm ustadımızı təbrik edir, salam göndəriyorum.

* * *

**FƏTULLAH RZABƏYLİ**
Xalq maarif komissarlığının
baş ictimai tərbiyə dairəsi müdiri

## HÖRMƏTLİ ŞAİQ!

Tə'lim və tədrisə uğraşmaqla ümumiyyətlə, maarif yolunda çalışmağına qədər ağır və məs'uliyyətli vəzifələrdən olduğu hər kəsə bəllidir. Lakin siz bu çətinliyi düşünərək gələcəkdə mə'nidar və əhəmiyyətli olan böylə bir vəzifəyi tam 20 sənə zərfində daşımağa təkəmmül edib və etməkdə davam ediyorsunuz. Sizin məktəblərdə verdiyiniz tə'lim ilə bərabər pədəranə tərbiyənzin parlaq nəticələrindən olmalıdır ki, bu gün sabiq mütəallimlərinizlə birlikdə maarifpərvər arkadaşlarınız sizi təbrik etməkdə 20 sənəlik ağır bir vəzifəyi daşımağınızı təqdir edirlər. Binaülileyh Xalq Maarif Komissarlığının baş ictimai tərbiyə dairəsi bunu doğurdan da şayani-təhsin və nümunəyi – əmsal ola biləcək ən dəyərli çalışqanlıq hesab edərək vücudunuzla iftixar edir.

* * *

**HÖRMƏT VƏ ALQIŞ SANA EY SEVGİLİ MÜƏLLİM ŞAİQ ƏFƏNDİ!**

Bu gün Azərbaycan türk gəncliyi, sizin 20 illik müəllimlik və ədiblikdə keçirdiyiniz dövri-fəaliyyət şərəfinə şənlik yapıyor. Həqiqətən iyirmi sənə bundan əvvəl müəllimlərimiz kafi miqdarda olmadığı halda sizin işbu ağır vəzifəyi umuzunuza alaraq yorulmaqsızın layiqincə apardığınızdan dolayı bu gün cəmiyyətimizin bir dəyərli üzvlüyünə yarar Azərbaycan türk gəncliyi kütləsini yaratdığınız bu uğurda çəkdiyiniz zəhmətlər qarşılıqsız qalmayıb. Bilümum Azərbaycan xalqı bilxasə türk mütəəllimləri tərəfindən daima alqışlar ilə dərxatir ediləcəksiniz. Ümid edəriz ki, işbu müqəddəs vəzifənin ifasını bundan sonra dəxi əsirgəməyib xalqımızı saheyi-mədəniyyətə çıxarmaq üçün böyük bir səbəb olacaqsınız.

Azərbaycan Xalq Maarif Komissarlığındakı Azərnəşr bütün hey'ət idarəsi və əməkdaşları ilə birlikdə tən vahid kibi sizi bu şərəfli gününüzdə ən səmimi qəlbdən təbrik edər, binlərcə böylə günlərə çatmanızı arzu ediyor.

***Azərnəşr.***

* * *

Ünas Ali Pedaqoji İnstitutu tələbələri tərəfindən Azərbaycan gəncliginin sevgili şairi və müəllimi Abdulla Şaiq əfəndini 20 sənəlik yubileyini (yovmi-



alisini) təbrik edəriz:

Hərçənd bu tarixi günün münasibətilə (Ələlxüsus azəri türklərinin tarixində) bir çox alimlər və bir çox kəlmələr zikr olunub.

Fəqət biz Ali Ünas Pedaqoji İnstitutunun tələbələri də bu sırada bir kaç kəlmə söyləməliyiz, Şaiqin 20 sənəlik yubileyini təbrik etməliyiz.

Biz bütün Azərbaycan gəncliyinin şu müqəddəs bayramını səmimi dildən təbrik ediyoruz və bununla bərabər Şaiq babamızın Azərbaycanın bu günkü gəncliyinin yeganə sevgili şairi və sevgili müəllimi olmasını zikr edəriz.

Onun daima hər iki müqəddəs vəzifəsində bərqərar olmasını diliyoruz.

***Ünas Ali Pedaqoji İnstitutu tələbələri namına ŞİRİN XANIM.***

* * *

Bu gün Azərbaycan zəhmətkeş xalqına tərbiyə və ədəbiyyat sahəsində yorulmaq bilməz bir əzmisəbatla xidmətdə bulunan möhtərəm müəllimimiz və şairimiz Şaiq babamızın yubileyində dərin bir duyğu ilə iştirak ediyoruz. Bundan sonra daha çox illər gənc Azərbaycanımıza xidmət və fəaliyyətini əsirgəməməsini təmənna etməklə bərabər möhtərəm vücudi-ürfan gəncliyi naminə səmim qəlbdən alqışlayaraq atəşli ümid və əzm salamlarını göndəriyoruz.

***Ali Pedaqoji İnstitutunun tələbələri.***

* * *

Sevgili müəllim!

Siz o sahibi xeyirsiniz ki: iyirmi sənədən bəri zülmət, cəhalət içində bulunan zehnimizi nur mə'rifətilə tənvir etmək üçün hər dürlü zəhmət və məşəqqətlərə nail olmuşsunuz.

Siz o insansınız ki, insaniyyəti ədl və istiqamətə sövq edən tərbiyə, təhsil və mərifət, hünər kibi bir takım zinətlərlə qəlbimizi təzyin edərək, bəşəriyyəti yüksəltmək uğrunda həsri-vücud etmişsiniz.

Hər zaman fikrimizi nurlandırmaq, əxlaqımızı gözəlləşdirmək üçün vermiş olduğunuz müfid dərslər, hələ səbr, həlm, sədaqət kibi fəzilətlər öyrədən nəsihətləriniz bizi, şərəf və səadənizi artırmaq üçün hər dəqiqə çalışmağa məcbur edir.

İştə biz də, tərbiyə və tə'limimizə sərf etdiyiniz bunca müsaiyəyə müqabil hörmət və məhəbbətinizi əl-əlbət ruhumuzla daşıyacağımızı hüzurunuza ərz etməklə bərabər bu günkü gününüzü səmimi qəlbdən təbrik ediriz.

***Darülmüəllimin.***

* * *

## ŞAİQİ TƏBRİK

Şaiq adı söylənincə hər bir Azərbaycanlı sevgili şairini və hörmətli müəllimini xatırlayıb, onun Azərbaycan türkləri uğrunda çəkdiyi zəhmətləri, göstərdiyi fəaliyyəti gözü önünə gətirir.



Şaiq nə yapmış? Bunu hər bir Azərbaycanlı gənc biliyor və çəkdiyi zəhmətlərinə görə onu daima təqdir ediyor. Əskidən bəri Məhmud əmilər çalışıb türk çocuqlarını tərbiyə etmək üçün vasitələr bulub yaratdığı kibi sevgili müəllimimiz Abdulla Şaiq dəxi yaratdığı əsərlərlə və tərtib etdiyi dərs kitablarilə gəncliyimizi tərbiyə etməkdən bir an geri durmamış, daima çalışmışdır və bu gün dəxi yüzlərcə əmələ fakültəsi tələbələrini tərbiyə etməkdə biz işçi tələbələrə kəndi türk dili və ədəbiyyatımızı öyrətməklə şura Azərbaycanımızın gələcək ziyalı dəstəsini hazırlamaqda yorulmadan davam ediyor.

Sevgili müəllimimiz Abdulla Şaiqin uğrumuzda çəkdiyi zəhmətlərə qarşı, biz əmələ fakültəsi tələbə və talibələri ona təşəkkürlərimizi izhar edərik, onun 20 illik yomi-alisi münasibətilə təbrik edər və biz işçi tələbələrini tərbiyə etmək üçün ona daima müvəffəqiyyətlər diləriz.

***Əmələ fakültəsi tələbələri.***

* * *

***Həqiqi millət xadimi-maarif xadimidir.***

Vaxtilə çar zamanındakı məktəblərdə türk ədəbiyyatı şöylə dursun, türkcə dərsinin ismi belə mövcud deyildi – deyərsəm xəta etməmiş olurum, zənnindəyəm. Zira az-çox müntəzəm bir məktəbdə belə türkcənin bir üsuli-təhtində tə'limi pək uzun bir

maziyə malik deyil. Məktəblərdə türkcə dərsinin (müsəlmanı) ədd edildiyi sıralarda övladi-vətənin istifadəsini nəzəri – e'tibara alaraq o zaman ki, hökumətin rəsmi məktəblərində türkcəyi tədris edən zatigeram miyanında möhtərəm ədib və qiymətli müəllimimiz Abdulla Şaiq dəxi bulunuyordu...

Azərbaycan türk gəncliyinin ürfan-ədəbiyyat-həyat və fəzilətə təşnə olduğu bir zamanda, əzm və mətanətlərini isbat məqsədilə bulunduqları cəbhədə, daima ehraz – müvəffəqiyyət buyuruyorlar. Möhtərəm ustadımızı vəzifə başında görməklə iftaxar edər və bu vəsilə ilə kəndilərini təbrik edəriz.

***Doktor: M.Orxanbəyli.***

* * *

Dəgərli arkadaşım ŞAİQ!

Bakının mütəəddit məktəblərində (ibtidai realniyə kadar) birlikdə çalışdığımız zaman vücudunuzla iftixar edərdim. İftixara səbəb olan sizdəki fitri zəkavətlə, iste'dadi – şairanənizdən başqa məharətli müəllim və ləyaqətli bir mürəbbi olduğunuz idi. İmdi isə yorulub yarı yolda qalmadığınız və bi'əks maarifimizin tikanlı yolları üzrə irəliyə doğru yürüməyiniz, həpimizi kəndinizlə bərabər aparıb inkişaf və irtiqayə doğru sövq etməniz, balalarımızın sağlam surətdə tərbiyə ala bilmədikləri haqqında aramsız təlaşda bulunub çalışmanız, -bəndənizi daha məmnun və mədyun buraxır.



Yaşa arkadaşım Şaiq, yaşa!
Dünya durduqca yaşa!

***Əli Raqib.***

* * *

## ŞAİQ GECƏSİNDƏN MƏQSƏD

Bu gün pək möhtərəm müəllimimiz Talıbzadə Abdulla Şaiq namına tərtib etdiyimiz müsamirə yalnız "Nümunə Məktəbi" tələbələri deyil, bəlkə bütün xalqımızı fərəhləndirir.

Bu gecə müəllimimizin 20 illik həyat fəaliyyətini təqdir üçün tərtib edilmişdir. Bu gün 20 il Azərbaycan maarifi uğrunda Şaiqin istər çocuq ədəbiyyatı, istər tədrisat kitabları təlifində xalqımıza göstərdiyi xidmət pək böyük təqdirə şayandır.

Şaiq bəy xalqımızın ictimai həyatı üzərində çalışmağından bir an geri durmamışdır.

Əvət bu gecə Azərbaycan gəncliyinin qaranlıq səmasında iyirmi sənədən bəri doğmuş və qaranlıq mühitini pək parlaq şüa ilə aydınlatmış olan bu bilgi yıldızının əhəmiyyətini təqdir ediyor. İyirmi il əvvəl doğan və parlaq bir sabahın mübəşşiri olan bu yıldız Azərbaycanımızın yarınının bilgi günəşinin dan yıldızıdır ki, bu gün o günəşin şüası səmamızı al şəfəqlərə boyamışdır. Abdulla Şaiq iyirmi ildən bəri, çar əsarətinin qara pərdələri altında ən həqir və ən dəyərsiz görünən müəllimlik vəzifəsini gülə-gülə, sevə-sevə üzərinə götürmüş və bu günə kadar heç

yorulmadan, heç bıkmadan daşımış, bu gün belə ən böyük bir şövq və həvəslə daşımaqdadır.

Şaiq bir çoxları kibi bir sərf-nəhv müəllimi olmaqla qalmamış, qaranlıq mühitinin sıcaq bir günəşi olmuş və xalqımıza müqtədir qələmi, parlaq dühası, dadlı dililə həqiqi həyat və qurtuluş yolunu göstərmişdir.

Şaiq bəyin xalqa etdiyi böyük xidmətlərdən biri də bütün Azərbaycanda birinci dəfə olaraq orta təhsilli məktəbin ilk banisi olmasıdır.

"Nümunə Məktəbi" pək böyük sevgili müəllimimizin iyirmi illik həyat fəaliyyətini təqdir və bu gecəni tərtib etməklə kəndini pək bəxtiyar və məs'ud sanır və bu "Şaiq gecəsi"nin fərdasında pək parlaq bir "Şaiq günü" bəklər...

***Arslan Mirzəzadə***

* * *

## E'TİZAR

Şaiqin yapdıqları bizim yazdıqlarımızdan pək çox, Şaiqin yazdıqları bizim göstərdiklərimizdən pək dəyərlidir. Böyük müəllimimizdən, bacarıqsız qələmimizdən çıxan xətaları təcrübəsiz mühakiməmizdən doğan yanlışlıqları etmək istədiyimiz səmimi xidmət naminə əfv buyurmalarını diləriz.

***Hörmətli yazıçılar.***



* * *

Məcmuədəki yazılar şəxsiyyətə görə deyil məzmuna görə tərtib edildiyini bildiririz.

* * *

## İZHARİ-TƏŞƏKKÜR

Məcmuəyi ümumlayacaq kadar az vaxt içərisində çıxarmağa yardım etdiyindən, birinci hökumət mətbəəsi müdiri pək möhtərəm Aslan bəy Abdullabəyli vətəndaşa və başqa işçilərə təşəkkür edəriz.

***Hey'ət.***

## SÖZLÜK

**A**

Adağlı – söz vermiş; adaxlı, nişanlı.
Alaca – əlvan, rəngarəng
Altun – qızıl
Amir – əmr edən, başçı
Anlı – ağıllı
Arkadaş – dost
Ati – gələcək

**B**

Baqi – əbədi, daimi
Bədi – nümünə, yeni icad olunmuş, incə kəlamdan bəhs edən elm
Bəlağəti – iqnaiyyə – gözəl səs
Bəlləmək – öyrənmək
Bəliğ – bəlağətli, təmtəraqlı
Bəlirmək – görünmək
Bəsatət – vasitə
Bəradər – qardaş
Bıçıq – kiçik, bir balaca
Bıkmış – usanmış
Bikə – qız, qadın
Bilaram – fasiləsiz
Bilümum – ümumiyyətlə
Binaülileyh – buna görə

**V**

Vəlo – bununla belə, hətta



**Ç**

Çocuq – uşaq
Çamurluq – çirkli yer

**C**

Cərh – yaralama; yara, qəlbi yaralama, sancma; adını ləkələmə
Cünbində – yanında

**D**

Dış – xaric
Dimaq – beyin, ağıl, şüur
Dolayısı ilə – münasibətilə

**E**

Ehmal – səhlənkarlıq, əhəmiyyət verməmək
E'tizar – xəbər; mə'lumat

**Ə**

Əcz – acizlik
Ədd – sayılan
Ələladə – adəti üzrə
Əski – köhnə
Əş – dost, bərabər
Əşhəddi – ehtiyac, daha çox ehtiyac
Əvət – bəli
Əzmi – səbat – möhkəmlik əzmi

**F**

Fəna – pis

Fərda – sabah
Füqərayi - kasibə – proletariat; fəhlə sinfi

**H**

Hailə – faciə
Həp – həm, bütün, hamı, tamam
Həpsi – hamısı
Hər dürlü – cürbəcür
Həşəmət – dəbdəbə, əzəmət
Həviyyət – həqiqət; mahiyyət
Həzl – lətifə; zarafat
Hicrə – kiçik
Hilm –səbr
Hirs – arzu; həyəcan, qəzəb
Hüviyyəti – şəxsiyyə – insan azadlığı

**X**

Xoca – böyük, ata, müəllim
Xüluq – xalqlar

**İ**

İbda – başlanğıc
İcab – lüzum; ehtiyac; zərurət
İcaz – oyatma
İxtifa – kifayətlənmək
İkmal etmək – bitirmək, başa vurmaq
İqaz – oyatma, qəflətdən ayıltma
İqdam etmək – başlamaq
İndində – nəzdində
İrtiqa – yüksəliş



İsnad – əsaslanmaq
İstibdad – zülm, əsarət
İştiğal – məşğul olma, iş görmə
İyi – yaxşı

**K**

Kaç – neçə
Kəndi – özü
Kibr – qürur
Kullanmaq – istifadə etmək
Küçük – balaca, kiçik

**Q**

Qaldırım – səki, küçə
Qayə – məqsəd, arzu, niyyət
Qamus – ensiklopediya
Qərami – lirik
Qut – qüvvətli; bacarıqlı, xoşbəxt
Qüdsi – müqəddəs

**L**

Lisan – dil

**M**

Mazi – keçmiş
Məani-bəyan – üslubiyyat; ritorika
Mədyun – borclu, minnətdar
Mə'ələsəf – təəssüf ki
Məhfuz – saxlanmış, mühafizə olunmuş, hafizədə qalan

Məhrəmi – raz – sirdaş
Mə'mur – əmr edən, başçı
Mərbutiyyət – bağlılıq; tabe olma
Mərbut – bağlı
Mərdivən – pilləkan
Mini-mini – kiçik
Məsai – kömək, yardım
Mə'təssüf – təəssüf ki,
Mətlə – qəzəlin ilk beyti
Mətlub – nəzərdə tutulan
Munis – dost, doğma, ünsiyyətdə olan şəxs
Mutlu – yaxşı
Müamilə – rəftar, hərəkət
Mücadilə – sözləşmə, çəkişmə
Mübəşşir – yayan
Mübtədilər – yenicə öyrənənlər
Müdəqqiq – tədqiq edən, tədqiqatçı, araşdıran
Müdhiq – diqqət yetirən
Müfid – faydalı
Mühəssənati – ləfziyyə – söz gözəlliyi
Mühəyyic – həyəcanlı
Mühəqqəq – doğru, yəqin, gerçək
Mümtaz – seçilmiş
Münəvvər – ziyalı, nurlu, işıqlı, parlaq
Müsaidə – icazə
Müstəbid – zülmkar, zalım
Mürəbbi – müəllim; yol göstərən
Mütəddid – çoxlu; cürbəcür
Mütəhərrik – hərəkət edən



Mütəəllim – tələbə
Mütərcəm – tərcümə edilmiş
Müttəsil – fasiləsiz, daim

**N**

Nam – ad
Nasıl – necə
Nərəsi – harası
Nəzdində – yanında
Niyaz – arzu
Nixsan inqilabı – Aprel inqilabı

**O**

Oda – otaq
Omuz – çiyin
Osaf – sifətlər

**Ö**

Öksüz – yetim, kimsəsiz
Öz – ürək, qəlb

**P**

Pədər – ata
Pək – çox
Pərəstar – xidmətçi; pərəstişkar; aşiq
Portəmkin – təmkinli

**R**

Rükn – özül, dirək; cəmiyyətin ən e'tibarlı dayağı olan görkəmli şəxs

Rüknü – əsası
Rüştiyyə – altı sinifli ibtidai təhsil məktəbi

**S**

Sakin odası – dincəlmək otağı
Səbat – möhkəm
Sənə – il
Sıcaq – isti
Sini – məcməyi, podnos
Sokak – küçə
Soğuq – soyuq

**Ş**

Şahiqə – zirvə
Şayani – heyrət – heyrətə layiq
Şaiq – zirvə
Şüar – əlamət, nişan, əsər, vərdiş, adət, ideya

**T**

Takım – neçə
Təali – yüksəliş
Tə'dil – çevirmək, ədalətli
Tələqqi – alma; hesab etmə; görüşmə, nəzərdə tutulmuş
Tə'lif etmək – tərtib etmək
Tənvirat – işıqlandırma; aydınlaşdırma
Təvafiq – müvafiq olma, uyğun gəlmə
Təzyin – zinətləndirilmiş, bəzədilmiş
Tibq – eynilə, tamamilə bənzər
Təhəmmül – dözüm



Təkdir – bulandırma, kədərləndirmə, əziyyət vermə, məzəmmət
Təmayiz – ayrılmış, seçilmiş
Təmənna – arzu etmək
Təsmiyyə – adlandırılmış
Tətmin – arxayınlıq
Təhərri – araşdırma
Təşrih – şərh etmə; açma
Tosif etmək – tə'rifləmək, vəsf etmək
Tühaf – qəribə

**U**

Uğrlaşmaq – məşğul olmaq
Ufaq – kiçik; zərif

**Ü**

Ülkər – ulduz

**Y**

Yabançı – yad
Yakışmaq – yaraşmaq
Yaxlaşmaq – yaxınlaşmaq
Yaldızlı – parlaq
Yovmi – ali – ildönümü, yubiley

**Z**

Zə'f – zəiflik
Zəka – ağıl
Zərafət – zəriflik

**Abdulla Şaiq Talıbzadə.**
Bakı, "Ağrıdağ" nəşriyyatı, 2001.

Nəşriyyatın direktoru: ***Əziz Ələkbərli***
Nəşriyyat redaktoru: ***Natiq Abbasov***
Bədii tərtibatçı: ***Vüsal Rafiq oğlu Bağırov***
Kompüterdə yığdılar: ***Ruhəngiz Əfəndiyeva***
***Xalidə Şəmmədova***
Kompüter tərtibatçısı: ***Baxşəli Süleymanov***
Korrektoru: ***İsmayıl Qasımov***
***Nuridə İbayeva***

Kağız formatı: 84/108 32/1
Mətbəə kağızı: №1
Həcmi: 68 səh.
Tirajı: 500
Qiymәti müqavilə ilə.

Kitab Azərbaycan EA Dədə Qorqud adına "Folklor" Elmi-Mədəni Mərkəzinin Kompüter Mərkəzində yığılmış, "Nurlan" mətbəəsində çap edilmişdir.

Ш 6
S 17